


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 83 (23.970)

*7 may 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul edib. Dövlətimizin başçısı ölkəmizdə səfərdə olan baş direktoru və nümayəndə heyətinin üzvlərini salamlayaraq FAO ilə Azərbaycan arasında tərəfdaşlığın səviyyəsindən məmnunluğunu bildirib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir. Aparılan islahatlar, hökumətin fermerlərə verdiyi subsidiyalar, dəstək kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin, əlbəttə ki, biz, xüsusilə indi, ərazilər işğaldan azad edildəndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Qu Donqyu qeyd edib ki, Azərbaycanın ərzaq sistemləri və kənd təsərrüfatının inkişafı üçün böyük potensial var. Ölkə başçısı tərəfindən Azərbaycanda güclü dəstəklənən aqroelektron ticarət və ya rəqəmsal kənd təsərrüfatı və ərzaq, habelə kənd yerlərinin rəqəmsal inkişafı xüsusi əhəmiyyətə malikdir.



## "Tarix yaradan şəxsiyyət" adlı tədbir olub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Tarix yaradan şəxsiyyət" adlı tədbir keçirilmişdir.*

Tədbirdə çıxış edən Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev bildirmişdir ki, qədim Naxçıvan torpağı XX əsrdə Azərbaycana Heydər Əliyev kimi görkəmli siyasətçi, müdrik dövlət xadimi bəxş etdi. Adı tarixin səhifələrinə qızıl hərflərlə yazılmış ulu öndərin Azərbaycan tarixində əvəzolunmaz xidmətləri olmuşdur. Dünya şöhrətli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir.

Qeyd olunmuşdur ki, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli ulu öndər Heydər Əliyevin xidmətləridir.

Tədbirdə Heydər Əliyev Muzeyinin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev "Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü: 1990-1993-cü illər" mövzusunda çıxış edərək bildirmişdir ki, qədim Naxçıvan yüzillərboyu Azərbaycanın dövlətçilik ənənələrinin yaşadıldığı dayaq mərkəzi, milli birliyin, həmrəyliyin dəyişməz ünvanı kimi tarixdə öz yerini alıb. 1990-1993-cü illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin xilaskarlıq missiyasının, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesinin məhz Naxçıvandan başlaması da, bu mənada, taleyin hökmü idi. Bu illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilərək milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına rəvac verib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasova "Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən tərəqqi strategiyasının əsas tərkib hissəsi olan Azərbaycanda dövlət qadın siyasəti", Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, Qadir Əkbərov "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlər" mövzularında çıxış ediblər.

Sonda muzeyin ekspozisiyasına baxış olmuşdur.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda beynəlxalq neonatoloji konfrans keçirilir



***Mayın 6-da Naxçıvan şəhərindəki "Duzdağ" hotelində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Neonatal diaqnozların xəstəlik tarixçələri üzərində müzakirəsi. Yaz hesabatı 1-ci modul" adlı ikigünlük Beynəlxalq Neonatoloji Konfrans öz işinə başlayıb.***

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Uptodate in Medicinenin birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər. Daha sonra onlar Heydər Əliyev Muzeyini ziyarət ediblər.

"Duzdağ" hotelində keçirilən beynəlxalq konfransın iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin həkim-metodisti, pediatr, konfransın ideya müəllifi və rəhbəri Şəlalə Həsənova bildirib ki, Naxçıvanda Türkiyə Neonatoloqlar Dərnəyi və Azərbaycan neonatoloqlarının iştirakı ilə keçirilən tədbir UPTODATE İN MEDİCİNE və Royal FOODS şirkətlərinin birgə əməkdaşlığı ilə ərsəyə gəlib. Tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən akkreditasiya olunub.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva qonaqları salamlayıb, bildirib ki, ölkəmizdə ötən əsrin 70-ci illərində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan səhiyyə islahatları müstəqillik dövründə daha da inkişaf etdirilmiş, bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti xeyli yüksəldilmişdir. Ulu öndərin Azərbaycana rəhbərliyi dövrü Naxçıvan səhiyyəsinin inkişaf mərhələsi kimi səciyyələnir. Göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda muxtar respublikanın ən ucqar dağ kəndlərində belə, müasir tələblərə cavab verən həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı ana və uşaqlara tibb xidməti göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, neonatoloji xidmətin daha da yaxşılaşdırılması üçün lazımi şərait yaradılıb. Reproduktiv sağlamlıq və ailə planlaşdırılması problemlərinə nəzarət daha də gücləndirilib, səhiyyə maarifi işləri günün tələbləri səviyyəsində qurulub.

Nazir müavini vurğulayıb ki, konfransın keçirilməsi Naxçıvan pediatrları üçün mühüm hadisədir və şübhəsiz ki, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə öz töhfəsini verəcək. Samrat Gəncəyeva beynəlxalq konfransın işinə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova, Ankara Universiteti Tibb fakültəsinin professoru Ömər Ərdəvə, Azərbaycan Respublikası Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, uşaq cərrahiyyəsi və uşaq urologiyası uzmanı Allahverdi Musayev, Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının direktoru, ümumi və laparoskopik cərrahiyyə uzmanı Azər İsmayılov, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun Neonatal reanimasiya şöbəsinin müdiri, Səhiyyə Nazirliyinin eksperti Rüstəm Hüseynov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin səhiyyənin inkişafındakı misilsiz xidmətlərindən bəhs ediblər. Qeyd olunub ki, bu gün ulu öndərin siyasi kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən sədaqətlə davam etdirilməsi digər sahələrdə olduğu kimi, səhiyyə sistemində də uğurlara daim vüsət verir.

Bildirilib ki, konfransın Naxçıvanda keçirilməsi heç də təsadüfi deyil. Azərbaycanın bu qədim diyarında səhiyyənin inkişafı, tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, ixtisaslı kadrların hazırlanması istiqamətində mühüm işlər görülür. Naxçıvanda bu tədbirin keçirilməsində də əsas məqsəd pediatrik, neonatal xəstəliklər ilə bağlı fikir, təcrübə və ideya mübadiləsi aparmaqdan ibarətdir.

Sonra konfrans bölmə iclasları üzrə öz işini davam etdirib. Ankara Universiteti Tibb fakültəsinin professoru Ömər Ərdəvə, Ankara İldırım Bəyazid Universitetinin professoru Əhməd Yağmur Baş, Başakşəhər Çam və Şakura Şəhər Xəstəxanasının professor doktoru Mərih Çətinkaya məruzələr ediblər. Medera Hospitalının uşaq xəstəlikləri uzmanı, tibb üzrə fəlsəfə doktoru Əli Quliyev, Azərbaycan Tibb Universiteti Nevrologiya şöbəsinin müdiri Aytən Məmmədbəyli və Azərbaycan Tibb Universiteti Birinci uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Sədiyevanın neonatologiyanın aktual problemlərinə həsr olunan məruzələri dinlənilib.

Konfransda bilik və təcrübə mübadiləsi aparılıb, yenidoğulanlarda çox rast gəlinən xəstəliklərin klinik hallarının müasir müalicə üsulları barədə məlumat verilib, suallar cavablandırılıb.

Konfrans bu gün öz işini davam etdirəcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Növbəti humanitar tibbi aksiyaya start verilib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu genişmiqyaslı Dövlət proqramları nəticəsində bu gün ölkə vətəndaşları səhiyyə sahəsində yüksək xidmətlə təmin olunurlar. Bu istiqamətdə görülən işlərə muxtar respublikamızda da verilən töhfələr ölkəmizdə reallaşdırılan sosial siyasətə dəstək xarakteri daşıyır. Muxtar respublikamızın bütün bölgələrində səhiyyə müəssisələrinin ən müasir tələblər əsasında qurulması əhalinin sağlamlığının qorunması ilə yanaşı, həm də humanitar tibbi aksiyaların təşkilinə şərait yaradır.

Akademik M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyətinin muxtar respublikaya dəvət olunaraq yerli kadrlarla humanitar tibbi aksiyalar keçirməsi də insan amilinə verilən dəyərin parlaq ifadəsidir. Bu tədbirlərin davamı kimi Respublika Klinik Xəstəxanası ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə mayın 6-da Naxçıvan Diaqnostika Müalicə Mərkəzində növbəti humanitar tibbi aksiyaya start verib. Tibbi heyət klinik xəstəxananın direktoru Azər İsmayılovun rəhbərliyi ilə 23 nəfərdən ibarət yüksəkixtisaslı həkimlə təmsil olunur. Onlar şəhid ailələri, qazilər, qazi ailələri və aztəminatlı ailələrin, eləcə də müraciət edən hər bir vətəndaşın müayinə və müalicələrini pulsuz təşkil edib və müvafiq tibbi təyinatlar veriblər.

Müraciət edən pasiyentlərin hamısını tibbi xidmətlə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılıb. Aksiya çərçivəsində Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin tibbi heyəti Bakıdan gələn həkimlərlə birgə əhaliyə xidmət göstərir. Bu şəraitdən yararlananlar razılıqlarını ifadə edirlər. Bütövlükdə, aksiyanın ilk günü 152 müayinə və 8 müxtəlif cərrahi əməliyyat aparılıb. Əməliyyat olunanlar həkim nəzarəti altındadır.

Humanitar tibbi aksiya mayın 11-dək davam etdiriləcəkdir.



## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbirlər keçirilib

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi və Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Sən elə bir zirvəsən” adlı respublika ifa müsabiqəsinin qala konserti və mükafatlandırılma mərasimi keçirilib.*

Müsabiqədə Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri rəqs nominasiyası üzrə “Köçəri” yallısı ilə çıxış edib. Münsiflər heyətinin yekun qərarına əsasən kollecin komandası birinci yerə layiq görülüb. Yekun konsertdə qaliblərə təşkilatçıların fəxri fərmanları və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, 1 fevral-5 may 2022-ci il tarixlərini əhatə edən, ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Sən elə bir zirvəsən” adlı respublika ifa müsabiqəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən peşə və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak ediblər.

3 minə yaxın tələbənin qatıldığı müsabiqənin keçirilməsində məqsəd ümummilli lider Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlətin qurulmasında misilsiz xidmətlərini gənclərə aşılamaq, onların asudə vaxtlarını səmərəli təşkil etmək, istedadlı gəncləri üzə çıxarmaqdan ibarətdir. Müsabiqə 4 nominasiya – şeir, bəstəkar mahnıları, təsnif və xalq mahnıları, milli rəqs olmaqla, 3 mərhələdə keçirilib. Naxçıvan Muxtar Respublikasının peşə və orta ixtisas təhsili müəssisələri üzrə 20 aprel 2022-ci il tarixdə keçirilən zona müsabiqəsində Naxçıvan Dövlət Texniki Kolleci birinci yerə layiq görülərək respublika müsabiqəsində yarışmaq hüququ qazanıb və göstərdiyi nəticə ilə yarışın qalibi olub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə partiyanın gənc fəalları arasında “Heydər Əliyev və Naxçıvan tarixi” mövzusunda “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib.*

Bildirilib ki, oyunun keçirilməsində məqsəd gənclərin intellektual düşünmə qabiliyyətlərini stimullaşdırılması, istedadlı gənclərin üzə çıxarılması və ulu öndərin həyat və fəaliyyətinin gənclər arasında geniş təbliğindən ibarətdir.

İntellektual oyunda Naxçıvan şəhərindən və muxtar respublikanın rayonlarının hər birindən 1 komanda olmaqla, ümumilikdə, 48 gənc mübarizə aparıb. Qaydalara əsasən 2 turdan ibarət yarışmada iştirakçılar üçün ulu öndərin həyat və fəaliyyətindən, Naxçıvan dövründən bəhs edən 24 sual səsləndirilib. Hər düzgün cavab 1 xalla qiymətləndirilib.

Yekun nəticələrə əsasən oyunda ən çox xal toplayan Culfa rayonunun “Odlar yurdu” komandası I yerin sahibi olub. Şahbuz rayonunun “Batabat” komandası II, Naxçıvan şəhər “Nuh yurdu” komandası isə III yerə çıxıb.



Qalib komandaları təbrik edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri Arzu Qasımov ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz tarixi xidmətlərindən danışıb.

Sonda qalib komandaların üzvlərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

*Müdriklərdən biri deyir ki, iki cür yolgöstərən var: biri öz yolunu başqalarına təlqin edir, digəri isə insanlara onların öz düzgün yollarını tapmaqda yardımçı olur. Böyük liderlər zəmanələrinin fatehləri kimi insanlara ən düzgün yolu tapmaqda kömək göstərirlər. Dövrünün görkəmli maarifpərvərlərindən olan Nəriman Nərimanov vaxtilə yazırdı: “Əgər tarixə nəzər salsanız, yəqin edərsiniz ki, heç bir xalq qılınc və silahla irəli getməyibdir. Hansı millət ki, gedib qabağa, tərəqqi edibdir, yalnız elmin, təhsilin gücünə xoşbəxt olubdur”. Xoşbəxt o xalqdır ki, özünə rəhbər seçib taleyini etibar etdiyi lider ona yolun ən düzgününü nişan verir. Bu, elm və təhsil yoludur. Bu sahəyə qayğı göstərən dövlət rəhbərləri bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edir, həm də dünya elminə və təhsilinə böyük töhfələr verirlər.*

*Təhsil millətin gələcəyidir*

## Xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahə



Müstəqil Azərbaycanın qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, onun hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: ***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”.***

Ulu öndər həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir. Azərbaycana birinci rəhbərliyi dövründə də ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. ***“Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”***, – deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu önə çəkərək demişdir: ***“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır”.***

Tarix zaman-zaman sübuta yetirib ki, bir xalqın inkişafı üçün bu yoldan daha müqəddəs bir yol yoxdur. Dünyanın bütün qabaqcıl xalqları öz hədəflərinə yalnız elmin, təhsilin, biliklərin gücü ilə çatıblar. Xalqın yetirdiyi maarifçilər, mütəfəkkirlər də bütün həyatlarını insanlara məhz bu həqiqəti çatdırmağa sərf ediblər. Təhsilin, elmin imkanlarının hər kəs üçün əlçatanlığı bu amalla yaşayıblar.

Prezident cənab İlham Əliyev hələ illər öncə Azərbaycanda qara qızılın insan kapitalına çevrilməsi prosesinin vacibliyini strateji hədəf kimi irəli sürmüş və əməli surətdə inkişaf etdirmişdir. Bu ali niyyətin reallaşdırılması üçün davamlı islahatlar aparılmışdır. Həmin islahatların təsiri ilə ölkəmizdə, eləcə də muxtar respublikamızda tamamilə yeni təfəkkürlü, müasir nəsil yetişmişdir. Gənclər bu gün cəmiyyət həyatının





bütün önəmli sahələrində yenilik meyillərini ifadə edirlər. Yeni nəsillərin bacarıqları, bilikləri, ən müasir texnologiyalara maraqları, müxtəlif tarixi hadisələr zamanı onların fəallığı, təəssübkeşliyi, təşəbbüskarlığı bütünlükdə cəmiyyətin inkişafından xəbər verən göstəricilərdir.

Gənclərimizin təhsili ilə yanaşı, milli ruhda tərbiyəsi, onlarda daim Vətənə sevginin olması da çox mühüm məsələdir. Əslində, elə milli təhsilimizin ali məqsədi də milli ruhlu kamil vətəndaşlar yetişdirməkdir. 44 günlük Vətən müharibəsində bunun bir daha şahidi olduq. Prezident cənab İlham Əliyev bu barədə deyir: ***“Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm. Mən görürəm ki, yeni, müasir nəsil yetişir. Müstəqillik dövründə doğulmuş və ya formalaşmış nəsil yetişir. Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim qədər, heç nəyə baxmadan müdafiə etməlidir”.***

Bu gün dövlətimiz təhsil almaq üçün xarici universitetlərə göndərilən və məzun olduqdan sonra xarici ölkələrdə qalıb çalışan gənclərimizin də daim yanındadır. Onlara lazımi dəstəyini heç zaman əsirgəmir. Çünki bu gənclər xaricdəki istinadgahımız, milli qürurumuz, uzaqlardakı Azərbaycanımızdır. Bizim ölkə hüdudlarından kənarda eşidilən səsimiz, sözümüz, nəfəsimizdir. Onların uğurları nə qədər bol olarsa, mövqeləri, dayaqları nə qədər möhkəmlənərsə, Azərbaycanın da nailiyyətlərinin hüdudları bir o qədər genişlənər, etibarlı olar.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, həmin ölkələrdə əldə edilmiş tərəqqi təhsilin yüksək səviyyəsi ilə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda elmi-texniki tərəqqini də yüksək dərəcədə şərtləndirir. Bu, ölkələrin ən yüksək inkişaf səviyyəsinə təbii resurslar vasitəsilə deyil, məhz bilik, savad, təhsil, elm, yetkin insan ağlının hesabına çatdığını göstərir.

Muxtar respublikamızda da təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafı ciddi önəm verilən məsələlərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində qədim diyarımızda müasir təhsil infrastrukturu yaradılıb. Belə ki, muxtar respublikada orta, orta ixtisas və ali təhsil, eləcə də elm müəssisələri üçün müasir tələblərə cavab verən binalar tikilib, həmin obyektlərin maddi-texniki bazaları gücləndirilib. Daha dəqiq desək, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq muxtar respublikada 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu gün həmin məktəblərdə, ali təhsil müəssisələrində zəngin dərslik və bədii ədəbiyyat olan kitabxanalar, idman zalları, fənn kabinələri, laboratoriyalar, müasir kompüter dəstləri müəllim və şagirdlərin ixtiyarındadır. Yaradılan müasir təhsil mühitinin nəticəsidir ki, ümumtəhsil məktəblərini bitirən məzunlar ali və orta ixtisas məktəblərinə qəbulda yüksək nəticələr göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Muxtar respublikada təhsilin inkişafı beynəlxalq aləmə inteqrasiya, elmi-tədqiqat işlərinin səviyyəsinin yüksəldilməsi, yüksəkixtisaslı kadr hazırlığı işinə müasir yanaşmanı əhatə etməklə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təhsil siyasətinə əsaslanır”.***

Görülən tədbirlər təhsilin müasir inkişafına, eyni zamanda güclü intellektual və kadr potensialının hazırlanmasına da şərait yaradır. O da xüsusi vurğulanmalıdır ki, bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. Bu baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri dünyanın qabaqcıl ali təhsil müəssisələri səviyyəsində güclü infrastruktura malikdir. Naxçıvan Dövlət və “Naxçıvan” universitetləri, Naxçıvan Müəllimlər İnstitutu diyarımızda yüksəkixtisaslı kadrların hazırlanmasına öz töhfələrini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Müəllimlər İnstitutunun yeni tədris korpusunda fəaliyyət göstərməsi, onun müasir ali məktəbə çevrilməsi, elmi-pedaqoji kadr potensialının zənginləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, beynəlxalq əlaqələrinin yaradılması, respublika səviyyəli qabaqcıl ali təhsil müəssisəsi kimi tanınması istiqamətində xeyli iş görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” 2019-cu il 7 sentyabr tarixli Sərəncamı muxtar respublika rəhbərinin elmə, elm adamlarına göstərdiyi diqqət və qayğısının bariz ifadəsi olmaqla respublikamızda elm adamlarının inkişafına, yeni-yeni tədqiqat işləri aparmalarına böyük stimul vermişdir. Ölkəmizdə elmə göstərilən qayğının digər bir təzahürü isə Prezident cənab İlham Əliyevin Sərəncamı ilə martın 27-nin “Elm Günü” kimi təsis edilməsidir.

Muxtar respublikamızda elm, təhsil sahəsində görülən işlər məzmun etibarilə çoxşaxəlidir. Son illərdə həm strateji, həm də taktiki baxımdan müasir keyfiyyət meyarlarına cavab verən xeyli işlərin görülməsi, elm, təhsil istiqamətində əsaslı islahatların uğurla davam etdirilməsi bu sahənin ildən-ilə daha da inkişaf edəcəyindən xəbər verir. Muxtar respublikada bütün təhsil pillələri üzrə müasir infrastruktur yaradılmış, yeni texnologiyaların tədrisdə tətbiqinə başlanmışdır. Təhsil müəssisələrində STEAM kabinələri yaradılmış, dərsliklər və tədris proqramları nəşr edilmiş, yüzlərlə müəllim STEAM təlimlərinə cəlb olunmuşdur. Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Universitetində Texnopark və Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin yaradılması da muxtar respublikada tələbələrin, şagirdlərin daha bilikli formalaşmasına böyük töhfə verəcəkdir. Ali Məclis Sədrinin də dediyi kimi: ***“Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Müdriklər də deyirdi ki, hər bir ölkənin gələcəyi o ölkə insanlarının alacağı təhsillə bağlıdır. Bu mənada, hərtərəfli təhsil alan gənclər ölkəmizin gələcək təminatçılarıdır”.***

Naxçıvan Muxtar Respublikasında müasir səviyyədəki yüksək inkişaf Azərbaycanda Heydər Əliyev yolunun böyük imkanlarının və geniş üfüqlərinin möhtəşəm təntənəsidir. Bu yol Azərbaycanın dünəni kimi, bu gününün də böyük reallıqları və daha parlaq sabahları deməkdir. Bütün bunlar Azərbaycanın tərkibində hərtərəfli surətdə inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhəddində alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır.

*Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Çünki qazanılan bütün nailiyyətlər məhz Heydər Əliyev ideyalarından güc alır. Ulu öndərin “millətin gələcəyi” adlandırdığı təhsil sahəsi islahatların daha sürətlə aparıldığından xəbər verir.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

2022-ci il “Şuşa ili”dir



# Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!

*1992-ci ilin 8 may günü idi, hər kəs susmuşdu. Heç kim danışmırdı, az öncə radioda səsləndirilən xəbər hər kəsi sükuta qərq etmişdi. Bir-birinin gözlərinə baxan insanların yanağına süzülən yaş torpağa düşdükcə, o da od tuturdu sanki. Od tuturdu, çünki bir parçası, ürəyi, başının tacı, canı əldən getmişdi, satılmışdı. Çarəsiz insanların alnına həmin gün qaçqın-köçkün adı yazılmışdı: Şuşa qaçqını... Hərə bir tərəfə səpələndi, kimisi Goranboya, kimisi Gəncəyə, Bakıya. Bəziləri isə: – Elə yerdə çadır quraq ki, heç olmasa hər gün gözəl dağları görək, – deyib Ağcabədidə, Ağdamda qaçqın ömrü sürməyə başlamışdı. Bir yurd dağıdılmışdı, bir el pərən-pərən düşmüşdü. Qoyundan el köçəndən gözləri yollardan yığılmadı Şuşanın. Şuşalılar da həsrətlə baxırdı çıxıb gəldikləri o dolanbac yollara bir gün qayıtmaq ümidi ilə...*

28 il kimsəsiz, əzizləri olmadan yaşadı o dağlar. Yana-yana, yanıqlı bayatılar deyə-deyə dünyadan köçdü Xədicə nənə kimi neçə-neçə insan. Beləcə, ömür keçdikcə bu yurd həsrətinin yarası qabıq qoydu. Amma sağalmadı; yurd, torpaq həsrəti o yaranın qabığını tez-tez soyurdu. Dağın yamacındakı o yurdda, ocaqda, o ocaqda tüstülənən odun peçinin üstündə dəmlənən yarma aşında qaldı çoxlarının fikri, xəyalı. İllərlə çadırlarda, köhnə xəstəxana binalarında dar otaqlarda yaşayan insanların xəyalları, arzuları o qoşa dağların ətəyindəki yurdda qalmışdı. Elə o yurdun da fikri, xəyalı doğmalarının yanında idi. Yolumuzu gözləyirdi, Vətən torpağı, ona qovuşacağımız, o dağlara zəfərlə qayıdacağımız günün yaxında olduğunu hiss edirdi. İnsanların da ümidi itməmişdi. Hər kəs əmin idi bir də öz ocağına dönəcəyinə, yenə o dağlara, yaylağa gedəcəklərinə, Cıdır düzündə, Çətir şəlaləde dincəlib xarıbülbülün seyrinə çıxacaqlarına. Azərbaycan xalqı buna əmin idi, çünki bu xalq ən çətin gündə birləşməyi, bir yumruq olub düşmənin başına ildırım kimi çaxmağı tarixboyu bacarıb, yenə də bacardı. Xalqımız dövlətimizə, dövlətimiz isə xalqımıza dayaq olaraq bacardı. Bəli, hərb tarixinə yazılan bir Zəfərlə Şuşanı azad edərək. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğal olunmuş bütün torpaqlarımız, o cümlədən Qarabağın almaz qaşı Şuşa, şəhidlərimizin qanı ilə yoğrulan Vətən torpağı igid oğullarımızın canı bahasına düşmən tapdağından azad edildiyi gün neçə-neçə Vətən oğlunun ruhu ağ göyərçinə dönüb Şuşanın azad səmasında qanad çaldı. Şuşanın üfüqlərində bayrağımız dalğalandı. Necə ki Cocuq Mərcanlıda, Talışda, Qızılqayada dalğalanıb düşmənin gözünə ox kimi batırdı. “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Şərqin konservatoriyası” adlandırılan Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri azad oldu. Vaxtilə ermənilərin “Dağlarda toy” əməliyyatı ilə işğal etdikləri elə həmin dağlarda igid oğullarımız da onlara tarixboyu unuda bilməyəcəkləri toyu tutdu. Ali Baş Komandanın dediyi kimi: ***“İndi biz onlara elə toy tutduq ki, bu dərsi əbədi yadda saxlayacaqlar”.***




Noyabr ayının 8-i Zəfər Günü kimi tariximizə düşdü. 1992-ci ilin mayın 8-də işğal edilmişdi Şuşa. Tarixi qələbə ilə 2020-ci il noyabrın 8-də azad edildi. İllər öncə yazda batan Günəş illər sonra payızda doğuldu. Payızda doğulan yaz Günəşinin al şəfəqləri təkcə Qarabağı yox, bütün dünyanı işıqlandırdı. Şuşanın azad edilmə planı hərb tarixinə iz saldı. İki ildir, doğma torpaq rahat nəfəs alır, o qurulur, bərpa edilir. Şuşa beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edir. Azərbaycan Prezidenti öz siyasi gücü ilə dünyaya Şuşadan mesaj verir. Vaxtilə düşmən vandallığının qurbanı olan abidələr bərpa edilir, yurdundan uzaq düşən, qaçqın taleyi yaşayan heykəllər də öz evinə qayıdır. İllərdir, “Güllələnmiş heykəllər” adlandırılan Xan qızı Natəvanın, Üzeyir Hacıbəyli və Bülbülün heykəlləri Azərbaycan Prezidenti cənab İlham Əliyevlə ailəsinin Şuşaya səfəri ərəfəsində doğma yurduna, layiq olduğu yerə geri qaytarıldı. 2021-ci ilin mart ayında – Novruz bayramı ərəfəsində bu qədim şəhərdə illər sonra bayram tonqalı qalandı. O yanan tonqal illərdir, Şuşasız üşüyən qəlbləri isitdi. Ötən il ölkə başçısının müvafiq Sərəncamı ilə bu il Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa, bu il 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” adına sahib oldu.

2021-ci il mayın 12-də Azərbaycanın Mədəniyyət Paytaxtı 31 il sonra “Xarıbülbül” Musiqi Festivalına ev sahibliyi etdi. Qədim mədəniyyət beşiyi olan Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşıladı. İllər sonra “Qarabağ şikəstəsi”nin sədası Şuşa dağlarında əks-səda verdi. Biz qayıtmışıq, doğma dağlar, sən bizimsən, əbədiyyən də bizim – öz doğmalarının olacaqsan, – dedi. Cıdır düzündə iki gün davam edən musiqi festivalında Vətənimizin bütün bölgələrindən olan musiqiçilər öz ifaları ilə biz birik, bütöv Azərbaycanıq, – dedilər. Ölkə başçısı çıxışında vurğuladı: ***“Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk”.***

Sonrakı səfərlərin birində isə 100 illik tarix və ya sarsılmaz birliyimizin növbəti nümunəsi də Şuşada yenidən tarixləşdi – “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzalandı. Həmin Bəyannamə tarixi 100 il bundan öncə imzalanan Qars müqaviləsinin davamı idi. Azərbaycan üçün çox önəmli bir tarixdə – Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra imzalanan Bəyannamə həm də böyük rəmzi məna daşıyırdı. Bu məna həm də sarsılmaz birliyimizi ifadə edirdi.

“Vaqif Poeziya Günləri” Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil edildi. Vətənin dörd bir yanından gələnlər gözəl Şuşanın seyrinə çıxıb Vaqif poeziyasının işığında nurlandılar. Ötən ilin son günlərində 2022-ci ili “Şuşa ili” elan edən Prezident cənab İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində deyib: ***“Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili “Şuşa ili” elan edirəm”.***

İşğaldan azad edildiyi gündən bu yana hər gün, hər ay müxtəlif tədbirlərə ev sahibliyi edən Şuşa aprelin 22-də Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayına ev sahibliyi etməyin qürurunu yaşadı. Dünyanın dörd bir yanından gələn azərbaycanlılar bu qədim şəhərin seyrinə çıxıb əziz şəhidlərimizin ruhuna dualar etdilər. Həmin qurultayın açılış mərasimində çıxış edən ölkə başçısı dedi: ***“Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz – ulu öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V Qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, Günəş də bizimlə həmrəydir”.***

Mayın 5-dən 8-dək Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada müxtəlif ölkələrin kulinarları bir araya gəliblər. Birinci beynəlxalq kulinariya festivalında bu şəhərin qədimliyi, gözəlliyi, Azərbaycan xalqının qonaqpərvərliyi bir daha nümayiş etdirilir.

Festivalda Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İndoneziya, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan gələn kulinarlar qonaqları öz ölkələrinin təamları ilə tanış edirlər. Qonaqlar peşəkar aşpazların ustad dərslərində də iştirak edib yemək hazırlamağın incəliklərini öyrənə biləcəklər.

*Möhtəşəm zəfərdən sonraki günlərdə, aylarda işğaldan azad olunan torpaqlarımızın necə dirçəldilməsinə şahidlik etdikcə qürurlandıq. Cənnətə döndükcə yurdumuz: **“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik! Şuşa Azərbaycanın gözüdür. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir”**, – deyən ulu öndərin ruhu şad olur. Biz dahi şəxsiyyətin arzuladığı kimi Şuşaya qayıtdıq. O cənnət yurdumuzun hər saat, hər gün çiçəkləndiyinə şahidlik edirik. “Gözəl Şuşa, cənnət Şuşa!” deyib əzizlədiyimiz qədim şəhərin illərdir, qəlbində qanayan yarası sağalır. O öz gözəl günlərinə geri dönür. Qafqazın cənnət şəhəri görkəminə, səsli-küylü vaxtlarına qayıdır. Ali Baş Komandanın dediyi kimi: **“Görəcəklər ki, torpaq sahibinin əlində olanda cənnətə dönür”.***

**Ramiyyə ƏKBƏROVA**

Axtarışlar, tapıntılar

# Naxçıvanda türk-islam memarlığının daha bir incisi

*Sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov AMEA Naxçıvan Bölməsinin qarşısında rayonların tarixinin yazılması ilə bağlı qoyduğu vəzifənin tələblərinə uyğun olaraq aparılan araşdırmalar zamanı Sədərək rayonunda 4 yeni abidə qeydə alınaraq pasportlaşdırılmışdır: Onlardan biri Sədərək hamamıdır. Bu məqalədə həmin abidə haqqında, yerli sakinlərin diliylə desək, “Köhnə hamam” haqqında yeni faktlar təqdim edilir.*

Hamamlar milli-mənəvi dəyərlərimizin atributlarından olmaqla təmizlənmə, saflaşma və sosiallaşma məkanı kimi xalqımızın həyatında mühüm yer tutmuşdur. Müdriklərimiz “Təmizlik imandan gəlir”, – deyiblər. Bu mənada, paklanmanın həyata keçirildiyi bu yerlər insanların həyat tərzinin ayrılmaz ikilisinə çevrilərək arxitekturada 2 müstəqil komponent şəklində təmsil olunmuşdur. Bunlardan birincisi – mənəvi təmizlənmə yerləri əsas ibadət yerləri kimi hələ Eneolit dövründən başlayaraq yaşayış komplekslərinin bir parçası olmuşdur. Sonralar belə məkanlara məbədlər, pirlər, məscidlər kimi müxtəlif adlar verilsə də, mahiyyət eyni olmuşdur: mənəvi paklanma məkanı. İkincisi isə cismani təmizliyin başlıca məkanı olmuşdur.

Türk-islam mədəniyyəti hər iki atributu bir-birinə daha da yaxınlaşdırmışdır. Orta əsr şəhərlərində olan 3 əsas tikilidən ikisi məhz bu iki təsisatla bağlı olmuşdur. Hər bir şəhərin mərkəz tikililəri içərisində dövlət binası, məscid və hamam vahid kompozisiya yaratmışdır. Hamamların məscid və mədrəsələrin yaxınlığında yerləşməsi mənəvi və cismani paklanmanın bir-birindən ayrılmaz olduğunu göstərirdi. Hamamlar həm də müəyyən mərasimlərin də həyata keçirildiyi yerlər kimi mühüm əhəmiyyətə malik olmuşdur. Bu səbəbdən Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da hamamlar çoxsaylı olmuşdur.

Orta əsr mənbələrində Naxçıvan hamamları ilə bağlı xeyli məlumatlara rast gəlinir. XVII əsrdə Ö.Çələbi təkcə Naxçıvan şəhərində 7 hamamın olduğunu qeyd etmiş və onlardan



Zal paşa hamamının geniş təsvirini vermişdir. J.Şarden də Naxçıvan hamamlarının gözəlliyindən bəhs etmişdir. Onlardan bir çoxunun yerüstü əlamətləri dağılsa da, İsmayılxan hamamı, Nüsnüs hamamı, Ordubad hamamı, Yengicə, Şahtaxtı və Xok hamamları zamanın sınaqlarına davam gətirərək günümüzədək gəlib çatmışdır.

El arasında “Köhnə hamam” kimi tanınan Sədərək hamamı Sədərək kəndinin əsas məhəllələrindən birində tikilmişdir. Hazırda onun yerləşdiyi şəxsi həyət hündür hasarla əhatə olunduğundan bu memarlıq kompleksi diqqəti çox da cəlb etməmişdir. Maraqlıdır ki, ötən əsrin 90-cı illərində erməni quldurlarının atdıqları güllələr və mərmilərdən bir çox yerlər dağıldığı halda, bu hamama ziyan dəyməmiş sanki xüsusi bir qüvvə tərəfindən qorunmuşdur. Əsrlərin yadigarı olan bu hamamın divarlarındakı suvaqlar bəzi yerlərdə qopduğundan kərpiclərin düzülüş forması daha aydın şəkildə üzə çıxmışdır. Bu da onun memarlıq xüsusiyyətini müəyyənləşdirməyə imkan verir.

Yarım yeraltı hamamlar qrupuna aid olan Sədərək hamamı dördkünc planda tikilmişdir. Qırmızı-çəhrayı rəngli kərpicdən tikilən hamamın xarici səthinə sarı rəngdə qalın suvaq çəkilmişdir. Xaricdən tikilinin uzunluğu 10, eni isə, təqribən, 5 metrə bərabərdir. Hamamın diqqətçəkən xüsusiyyətlərindən biri dördkünc formalı divarlarının yuxarı hissədə birləşdiyi dairəvi formalı tavanın üzərində günbəzin olmamasıdır. O, silindrik formalı olub, təqribən, 1 metr hündürlüyə malikdir. Lakin bu yalnız sağlam qalmış vestibül hissəyə aiddir. Otaqlardan birinin üzəri günbəzşəkilli olub dairəvi baca ilə tamamlandığı



aydın görünür. Tikilinin digər hissələri torpağın altında qaldığından digər otaqların üzərində günbəzin olub-olmadığı bəlli deyil.

Tikili kompleksinin içərisi 1 vestibül və ona bitişik olan 2 əlavə otaqdan ibarətdir. Vestibülün eni və uzunu 5,4 metrdir. Daxildən 4 çatma tağın birləşdiyi yuvarlaq günbəzlə tamamlanmışdır. Hər divardakı tağların eni 3,7 metrdir. Cənub istiqamətində olan giriş qapısının eni 85 santimetrdir. Qapı tağşəkilli formada tamamlanmışdır. Digər qapı onun qarşısındakı divardan şimal istiqamətində olan kiçik otağa açılır. Bu otağın eni 2,8, uzunluğu isə 3,4 metrdir. Dördkünc formada olan bu otaq yuxarıda qövsvarı tavanla tamamlanmışdır. Tavanın mərkəzində diametri, təqribən, 50-55 santimetrə bərabər olan baca yerləşir. Görünür, otağın içərisi bu bacanın köməyi ilə işıqlandırılmışdır. İçərisində divarboyu daş səki düzəldilmişdir. Böyük ehtimalla, bu otaq yuyunma kabinəsi funksiyası daşımışdır. İkinci otaq şərq divarına bitişik olub sonradan əlavə edilmişdir. Bu otağın günçıxana doğru açılan qapısı, təqribən, 80 santimetr enində olmaqla tağşəkilli formada tamamlanmışdır. Çox təəssüf ki, hamamın şimala doğru olan digər hissələri torpağın altında qalmışdır. Ümumilikdə, tikinti texnikası və forması binanın quruluşu baxımından Şahtaxtı hamamı, Yengicə kəndindəki Şərq hamamı ilə oxşarlıq təşkil edir. Binanın tikinti xüsusiyyətləri, forması, həmçinin digər hamamlarla müqayisəsi haqqında mütəxəssislərin fikrinə əsaslanaraq onu XVIII-XIX əsrlərə aid etmək olar. Bu tarix vaxtilə görkəmli epiqraf M.Nemət tərəfindən tədqiq edilmiş Sədərək camesinin kitabələri ilə də uyğun gəlir. Kitabələrdən birində hicri 1112 (miladi təqvimlə 1700/1701-ci illər), digərində isə hicri 1259 (miladi təqvimlə 1843-cü il) yazılmışdır. Tədqiqatçı bir neçə tarixin göstərilməsinin məscidin yenidən təmir edilməsi ilə əlaqədar olduğunu qeyd etmişdir. Camenin tikilmə və bərpa edilmə tarixləri nəzərə alınaraq XVIII-XIX əsrlərə aid edilmişdir.

*Qeyd etmək lazımdır ki, hamamlar, adətən, məscidlərin yaxınlığında tikilir və dövlət binası ilə birlikdə şəhərlərin üçlü kompozisiyasını təşkil edirdi. Sədərəkdə Azərbaycanın orta əsr şəhərləri üçün xas olan bu cür tikili kompozisiyalarının olması XVIII-XIX əsrlərdə onun şəhərtipli qəsəbə olduğunu təsdiq edir.*

**Zeynəb QULİYEVA**
***AMEA Naxçıvan Bölməsinin Arxeoloji xidmət şöbəsinin müdiri, dosent***

*1941-1945-ci illər İkinci Dünya müharibəsində milyonlarla insan həlak oldu. Bu dəhşətli müharibə Hitler faşizminə qarşı aparılırdı. Müharibədə azərbaycanlılar bu gün də iftixarla danışılan böyük şücaət və qəhrəmanlıq göstərdilər, bir sözlə, özlərini qurban verdilər. Həmçinin ölkəmiz sovet ordusu üçün cəbhəni neft, benzin sürtkü yağları ilə təmin etməklə qalibiyyəti daha da asanlaşdırdı. Bir də ki xalqımızın döyüş və əmək rəşadəti düşmən üzərində qələbənin qazanılmasında mühüm rol oynadı. Müharibədə canlarını qurban verənlər, igidliklə vuruşanlar "Sovet İttifaqı Qəhrəmanı" adına, müxtəlif orden və medallara layiq görüldülər. Bu gün də böyük iftixar hissi ilə qeyd etdiyimiz 9 May – Qələbə Gününün sevincini Xalq şairi Səməd Vurğun böyük ilham və coşqu ilə belə təsvir edirdi:*

# Tariximizə qəhrəmanlıq səhifəsi yazanlar

*Yazılsın tarixə bir qızıl xətlə*
*45-ci ilin doqquz may günü.*
*Başlansın şeirlə, sazla, söhbətlə*
*Bu ellər bayramı, ellər düyünü...*

İkinci Dünya müharibəsində tarixboyu öz qəhrəmanlıqları ilə seçilən naxçıvanlılar da həm arxa, həm də ön cəbhədə əzmkarlıq nümunəsi göstərib, döyüşlərdə cəsarətlə vuruşub, faşist ordu hissələrinin hərbi texnikasını və canlı qüvvəsini məhv edib, bu yolda çoxları ölümləri ilə əbədiyyətə qovuşublar. 402-ci atıcı diviziyanın tərkibində birbaşa döyüş meydanına yola salınıb, döyüşlərdə iştirak edən naxçıvanlılar "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb, orden və medallarla təltif ediliblər. Bu gün muxtar respublikamızda İkinci Dünya müharibəsində iştirak edərək sağ qalanlara xüsusi qayğı ilə yanaşılır, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilir, onlar minik avtomobilləri və mənzillərlə təmin olunurlar.

Hazırda müharibəni görmüş, ön cəbhədə iştirak edərək qəhrəmanlıq göstərmiş, müharibənin ağrılarını hələ də öz üzərlərində daşıyan, həyatda olan naxçıvanlı müharibə veteranları vardır. Onlar Culfa rayonunda yaşayan Abdulla Səfərov və Vəli Qasımov, Ordubad rayonundan olan Məmmədəli Sultanov, Şahbuz rayon sakinləri Hüseyn Hümbətov və Məhəmməd Həsənov, Kəngərli rayonunda yaşayan Əli İbrahimovdur. Qürur yerimiz olan veteranlarımızı çoxsaylı oxucuları olan "Şərq qapısı" qəzeti vasitəsilə həmvətənlərimizə bir daha tanıtmaq istədik:



***Abdulla Səfərov*** 1923-cü ildə Culfa rayonunun Yaycı kəndində anadan olub. İkinci Dünya müharibəsinin ilk illərindən müharibəyə çağırılıb və ön cəbhədə fədakarlıq göstərib. Abdulla Səfərov Şimali Qafqaz cəbhəsində döyüşərək Mozdok və Krım şəhərlərinin almanlardan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak edib. O, dövlətimizin hərtərəfli qayğısı əhatəsindədir. Abdulla Səfərov döyüşlərdə göstərdiyi şücaətə görə müxtəlif orden və medallarla təltif edilib, 2015-ci ildə dövlətimiz tərəfindən ona avtomobil hədiyyə edilib.

Vətən naminə əlinə silah alıb alman faşistləri ilə döyüşə yollananlardan biri də ***Vəli Qasımov***dur.



O, 1925-ci ildə Culfa rayonunun Xanəgah kəndində doğulub. 1941-ci ilin oktyabr ayında cəbhəyə çağırılıb, uzun döyüş yolu keçib. Taqanroq diviziyasının tərkibində döyüşən müharibə iştirakçısı Belarusun Vitebsk şəhərinin azad olunması uğrunda düşmənə qarşı vuruşub. Topgüllə altında cəsarətlə döyüşüb, ağır yaralanıb. Lakin ruhdan düşməyib, qələbəyə olan inamını itirməyib. I qrup müharibə veteranı kimi 1944-cü ildə ordu sıralarından tərxis edilib. Müharibədə göstərdiyi şücaətə görə 1 orden və 27 medalla təltif olunub, ona bir neçə dəfə avtomobil təqdim edilib.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçənlərdən biri də Şahbuz şəhər sakini ***Məhəmməd Həsənov***dur. Belarus, Ukrayna, Krım, Smolenski



meşələrində, Qafqaz və Karpat dağlarının alçaqmaz yerlərində qəhrəman döyüşçülərimizlə birlikdə faşizmə qarşı döyüşən, düşmənə sarsıdıcı zərbələr endirən müharibə iştirakçısı dəfələrlə yaralanıb, ancaq əsgəri borcunu son günədək yerinə yetirib. 1945-ci il mayın 9-da faşist Almaniyası üzərində tarixi qələbəni Berlində qeyd edənlərdən olub. Qələbədən bir il sonra ordu sıralarından Vətənə qayıdıb. İkinci Dünya müharibəsi iştirakçısı dövlətimiz tərəfindən lazımi qayğı ilə əhatə edilib, döyüşdə göstərdiyi rəşadətə görə müxtəlif vaxtlarda orden və medallar alıb.

Müharibənin cəsur iştirakçılarından biri də Şahbuz rayonunun Güney Qışlaq kənd sakini ***Hüseyn Hümbətov*** olub.



1920-ci il iyulun 1-də anadan olan Hüseyn müəllim 21 yaşında İkinci Dünya müharibəsinə yollanıb. Müharibədə üç dəfə yaralansa da, yenidən döyüşə yollanıb. Bu günə qədər 14 müxtəlif medalla təltif olunan Hüseyn Hümbətov bu gün nəvə, nəticə sahibidir. Ona Prezident təqaüdü, əmək pensiyası təyin edilib. 2011-ci ildə minik avtomobilinin təqdim olunması da ona göstərilən yüksək dövlət qayğısının növbəti təzahürüdür.

Muxtar respublikamızın ən uzunömürlü ailəsinin başçısı olan ***Məmmədəli Sultanov*** hazırda Ordubad rayonunun Tivi kəndində yaşayır. 102 yaşlı müharibə veteranı İkinci Dünya müharibəsində ön cəbhədə vuruşub, şücaət göstərib, göstərdiyi fədakarlığa görə müxtəlif orden və medallarla təltif olunub. Dövlətimiz tərəfindən avtomobillə təmin edilib, Prezident təqaüdünə layiq görülüb.

***Əli İbrahimov*** 1925-ci ildə Kəngərli rayonunun Xok kəndində anadan olub. Müharibənin ağrıacısını yaxşı bilənlərdən biridir. 1941-ci ildə cəbhəyə göndərilib, digər xalqların nümayəndələri ilə çiyin-çiyinə faşizmə qarşı savaşıb. Od, alov püskürən cəbhələrdə, o cümlədən Şimali Qafqazda Qroznı-Mozdok istiqamətində ağır döyüşlərdə iştirak edən müharibə iştirakçısı ağır yaralanıb. Müharibə veteranı bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə edilib.

Müharibə illərində naxçıvanlılar arxa cəbhədə də köməklik göstəriblər. Qızılını, gümüşünü sataraq cəbhəyə zəruri mal və materiallar, isti geyim, meyvə qurusu, digər qida məhsulları göndərən naxçıvanlılar da az olmayıb.

***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər...",*** – deyən ümummilli liderimiz Heydər Əliyev siyasətinin uğurla davam etdirildiyi muxtar respublikamızda veteranlara qayğı göstərilir, onların bütün problemləri həll edilir. İkinci Dünya müharibəsi iştirakçılarının sosial müdafiəsi gücləndirilir. Dövlət başçısının müvafiq fərman və sərəncamı ilə İkinci Dünya müharibəsi zamanı sağlamlıqlarını itirənlərə və digər iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri təyin olunaraq ödənilir. Aylıq təqaüdlə yanaşı, bütün İkinci Dünya müharibəsi veteranlarına pensiya təyin olunur. Hər il 9 May – Qələbə Günü ərəfəsində Azərbaycan Respublikası Prezidentinin sərəncamları imzalanmaqla İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilir. Həmçinin İkinci Dünya müharibəsi veteranları mənzillə, minik avtomobilləri ilə təmin olunur, bu kateqoriyadan olan vətəndaşların bərpa müalicəsi, sanator-kurort yollayışları, tənha yaşadıqları halda evlərində sosial məişət xidmətləri ilə təminatı diqqətdə saxlanılır.

*Sevindiricidir ki, bu gün muxtar respublikamızda yetişən gənclərimiz Vətənimizin müdafiəsində veteranların təcrübəsindən istifadə edərək qəhrəmanlıq nümunələri göstərir, Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü qoruyurlar. Məhz 2020-ci ildə 44 gündə biz bu nümunəni bir daha gördük. Uzun illərdir, düşmən tapdağı altında qalan torpaqlarımız qeyrətli Vətən oğullarının şücaəti hesabına işğaldan azad edildi. Burada naxçıvanlılar xüsusilə seçildilər, onlar qəhrəmancasına döyüşdü, şəhidlik zirvəsinə ucalaraq əbədiyyətə qovuşdular. Nəsillərdən-nəsillərə ötürülən vətənpərvərlik əzm və iradəsi, Vətən uğrunda hər cür şücaətə, fədakarlığa hazır olmaq, şəhid və qazilərimizə, müharibə iştirakçılarına hörmət və ehtiram gələcək nəsillər üçün də ən ali dəyər, örnək olacaq.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Muxtar respublikada may ayı üzrə pensiyaların maliyyələşdirilməsi başa çatdırılıb

Muxtar respublikada iqtisadiyyatın davamlı inkişafı, həmçinin sığorta-pensiya sisteminin düzgün qurulması nəticəsində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun gəlirləri artıb və bunun nəticəsində pensiya və məcburi dövlət sosial sığorta haqları hesabına ödəmələrin vaxtından əvvəl maliyyələşdirilməsinə şərait yaranıb. Fond tərəfindən hər ay olduğu kimi, may ayında da bütün növ əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb. Bundan başqa, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına pensiya məbləğlərinin 10 faizi məbləğində maddi yardımın ödənilməsi də təmin edilib. Əmək pensiyalarının ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilib. Pensiya ödənişi ilə yanaşı, əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də ödənilməsi başa çatdırılıb.

Hazırda tətbiq olunan pensiya sistemi fərdi uçot əsasında, sosial sığorta prinsiplərinə uyğun olaraq fəaliyyət göstərir. Fərdi uçotun tətbiqi ilə bütün işləyən vətəndaşları əhatə edən sığorta-pensiya sisteminin formalaşdırılmasına nail olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Sosial Müdafiə Fondunun**
**mətbuat xidməti**

## Ali təhsil ocağında Xalq şairi Xəlil Rza Ulutürkün 90 illik yubileyi qeyd olunub



*"Naxçıvan" Universitetində XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, filologiya elmləri doktoru, professor Xəlil Rza Ulutürkün 90 illik yubileyi qeyd olunub. Tədbir Xəlil Rza Ulutürkün həyat və fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlayıb.*

Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Arifə Zeynalovanın təşkilatçılığı ilə Xəlil Rza Ulutürkün şeirləri əsasında Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə I kurs tələbələrinin hazırladıqları "Türkün haqq səsi – Xəlil Rza Ulutürk" adlı ədəbi-bədii kompozisiya özünün gözəlliyi, bitkinliyi ilə izləyicilərin alqışlarına səbəb olub.

Uğurlu tamaşa ilə əlaqədar tələbələri təbrik edən "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva Xəlil Rza Ulutürkün çoxşaxəli yaradıcılığı ilə bağlı məruzə edib. Bildirib ki, Xəlil Rza, sözün həqiqi mənasında, qəhrəman bir şəxsiyyətdir. Onun bütün yaradıcılığı rəşadətlə, bitib-tükənməyən mübarizə ilə, zülmə qarşı üsyan bayrağı qaldırmaqla səciyyələnir. Buna görə də yaradıcılığı boyu qələmə aldığı misralarında Vətən məhəbbəti, torpaq sevgisi, sülh, əmin-amanlıq, azadlıq kimi dəyərlər həmişə ana xətt olaraq davam edib. Azərbaycanı sevən, onun müstəqil dövlət olması arzusu ilə yaşayan və çarpışan, bütün buxovları qırmaq, zəncirləri yox etmək, müstəmləkə və zülmün qarşısına sədd çəkmək istəyi onu azadlıq şairinə çevirib.

**"Naxçıvan" Universitetinin**
**mətbuat xidməti**

## İstehsalat təcrübəsi uğurla davam etdirilir



*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər ixtisasının 4-cü kurs tələbələri Dövlət Miqrasiya Xidmətində istehsalat təcrübəsi keçirlər.*

Ümumilikdə, 24 tələbənin iştirak etdiyi təcrübə 6 aprel-27 may tarixlərini əhatə edir. Təcrübənin keçirilməsində əsas məqsəd tələbələrin nəzəri biliklərini möhkəmləndirmək və sonrakı əmək fəaliyyətində istifadəsini təmin etməkdən, onları ixtisas profilindən və xüsusiyyətindən asılı olaraq yeni texnologiyalarla, iş üsulları ilə tanış etməkdən, o cümlədən tələbələrə işgüzarlıq, təşkilatçılıq və texnologiya vərdişləri aşılamaqdan ibarətdir.

Təhsil aldıqları ixtisas üzrə təcrübə toplayan tələbələr xidmətin müxtəlif struktur bölmələrində mövcud iş prosesləri ilə də tanış edilir və müəyyən sahələrdə ilkin peşə vərdişlərinə yiyələnirlər.

Təcrübə müddətində tələbələrin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin fəaliyyəti ilə də tanışlığı həyata keçirilib, xidmət əməkdaşları tərəfindən mərkəzin iş prinsipi barədə ətraflı məlumatlar verilib.

İstehsalat təcrübəsini müvəffəqiyyətlə başa vuran tələbələrə şəhadətnamələr təqdim ediləcək.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Miqrasiya Xidmətinin**
**mətbuat xidməti**

## Açıq birincilik keçirilir

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyası tərəfindən təşkil edilən karate üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika açıq birinciliyi keçirilir.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində may ayının 5-dən başlayan, ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən yarışda yerli idmançılarla yanaşı, Bakı və Sumqayıt idmançıları da daxil olmaqla, ümumilikdə, 250-dən çox



karateçi medallar uğrunda mübarizə aparır.

Olimpiya sistemi üzrə müxtəlif yaş və çəki kateqoriyalarında təşkil edilən yarışda bu gün final döyüşləri keçiriləcək.

## Şəhər birinciliyi yekunlaşıb



Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında atletikanın qaçış növü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının Naxçıvan şəhər bölməsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda federasiyanın şəhər bölməsinin 12 idmançısı iştirak edib. Beynəlxalq Atletika Federasiyasının qaydalarına uyğun keçirilən yarışda 100 metr məsafədə Ayrım Nağıyev qalib adını qazanıb. Umud Məmmədov ikinci, Hüseyn Əliyev isə üçüncü olub.

Sonda yer tutan və fərqlənən idmançılara diplom və fəxri fərmanlar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Qənbərov Rasim Məmməd oğlunun adına olan 0900124702 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Əliyev Rüzgar Vilayət oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun adına olan AD-0049902 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 382